Xalq qəzeti.- 2019.- 30 dekabr.- S.6.

# Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir



***Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir. Çünki bizim siyasətimiz ictimaiyyət tərəfindən dəstəklənir və ictimaiyyət də görür ki, bizim siyasətimiz real, konkret nəticələrə gətirib çıxarır.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bu gün Azərbaycanda xalq və dövlət, iqtidar və cəmiyyət arasında son dərəcə sıx bağlılıq, inam və etimad mövcuddur. Bunun etimadı qazanmaq, xalqın öz dövlətinə, hakimiyyətinə münasibətini möhkəmləndirmək asan başa gəlməmişdir. Bunun üçün uzun, zəhmət tələb edən bir yol qət edilmişdir. Məlum olduğu kimi, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət və hakimiyyət böhranı yaranmışdı. İctimai həyatın bütün sahələrində anarxiya hökm sürürdü. Milli orduda da vəziyyət ürəkaçan deyildi. Fərarilik adi hal alır, dövlətin möhkəm, etibarlı şəxslərin əlində cəmləşməsinə zərurət yaranmışdı. Erməni təcavüzü gündən-günə güclənməkdə idi. Anarxiya vəziyyətinin xalqın maraqları ilə zidd olması, Azərbaycanda hakimiyyət boşluğunun yaranması bütövlükdə, ölkəmizin varlığını şübhə altına almışdı.***

Vətənin belə ağır günündə xalq Naxçıvandan görkəmli oğlu Heydər Əliyevi Bakıya dəvət etdi. Ulu öndər tez bir zamanda ölkədə sabitliyi bərpa etdi, dövlətimizin güclənməsi, ordumuzun təşəbbüsü ələ alması nəticəsində düşmənlə atəşkəs imzalandı. Yeni güclü Milli Ordu quruculuğuna start verildi, struktur və kadr islahatları aparıldı, xarici siyasətdə böyük uğurlar qazanıldı. İqtisadiyyatda görünməmiş irəliləyişlər əldə olundu. Bir sözlə, Azərbaycan xalqının öz dövlətinə olan sarsılmış inamı bərpa edildi. Əhalinin hökumət, dövlət orqanlarına münasibəti yaxşıya doğru dəyişməyə, iqtidara etimadı artmağa başladı.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə kəskin dönüş yaradaraq, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə təkan verdi.

Sevindirici haldır ki, Prezident İlham Əliyevin 16 illik hakimiyyəti dövründə də Heydər Əliyevin yaratdığı siyasi kurs uğurla icra olundu. Azərbaycanın siyasi, sosial, iqtisadi, mədəni və digər ən mühüm sahələrində sıçrayış qeydə alındı. Bunun nəticəsidir ki, bu gün ölkəmizdə siyasi sabitlik ən yüksək səviyyədədir. Bundan əlavə, dövlətin əhalinin rifah halının yaxşılaşdırılması üçün həyata keçirdiyi tədbirlər, dövlət başçısının islahatları kontekstində müvəffəqiyyətlə icra olunmaqdadır. Dünyanın bir sıra ölkələrində daxili çəkişmələr, xaos tüğyan etsə də, vaxtilə güclü infrastrukturu olan ölkələr tənəzzül təhlükəsi ilə qarşı-qarşıya qalsa da, Azərbaycan həm daxili siyasi sabitliyini qoruyur, həm də xarici siyasətində öz prioritetlərini uğurla təqdim edir, dünya dövlətləri ilə qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa söykənən güclü münasibətlər qurur. Buna görə də, ötən illər ərzində ölkəmizdə xalqla iqtidar arasında sarsılmaz münasibətləri pozmağa çalışan heç bir qüvvə istəyinə nail ola bilmədi.

Prezident İlham Əliyev çıxışlarında bu birliyə toxunaraq qeyd etmişdir: “Bu gün dağılmış vəziyyətdə olan və daxili inteqrasiyanı tamamilə itirən ölkələrin gələcək taleyi böyük sual altındadır. Ona görə həyat və yaxın tarixin mənzərəsi göstərir ki, sabitlik əsas amildir və sabitlik necə təmin edilməlidir? Ancaq düzgün siyasətlə. O siyasət ki, onun mərkəzində xalq dayanır, ölkə vətəndaşı dayanır. Biz məhz bu siyasəti aparırıq. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gün var və gündən-günə güclənir.”

Bu gün ölkəmiz dünyada əhalinin dövləti idarə edən siyasətçilərə ən çox etimad göstərdiyi top-20 ölkə arasındadır. Dünya İqtisadi Forumunun “Qlobal rəqabətlilik 2017-2018” hesabatının “Siyasətçilərə ictimai etimad” adlanan kateqoriyasında bu öz əksini tapmışdır. “Siyasətçilərə ictimai etimad” adlanan kateqoriyada Azərbaycanın dünyada 20-ci yerə yüksəlməsi birbaşa əhali və biznes nümayəndələri arasında aparılan sorğulara əsaslanır. Bu isə bir daha onu göstərir ki, obyektiv sorğu nəticəsində Azərbaycanda iqtidara xalqın böyük etimadı üzə çıxır. Prezident İlham Əliyevin dediyi kimi, ölkədə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsi və eyni zamanda, iqtidarın apardığı siyasətdir.

Təsadüfi deyildir ki, 2015-ci ildən başlayaraq neft qiymətlərinin kəskin düşməsinə baxmayaraq, Azərbaycanda heç bir sosial layihə dayandırılmadı, əvəzində isə yüzminlərlə iş yeri açıldı, dövlət əhalinin aztəminatlı təbəqəsinə, həssas kateqoriyaya aid vətəndaşlarına diqqət və qayğısını dəfələrlə artırdı. Azərbaycan dövləti dünya iqtisadi böhranından qaynaqlanan problemləri qabaqlayaraq, bir növ əhalinin bunu daha az hiss etməsi üçün əlindən gələni etdi. Azərbaycan “Qlobal rəqabətlilik hesabatında” daha bir kateqoriya – “Dövlət tənzimlənməsinin yükü” göstəricisinə görə, dünyada 15-ci yerdə qərarlaşdı . Ekspertlər qeyd edirlər ki, Azərbaycan dünyada dövlətə ən çox etimad göstərilən və dövlətin əhaliyə və biznesə ən az yük olduğu ölkələr sırasındadır.

Bu gün Azərbaycanda dövlət və xalq birliyini şərtləndirən əsas amillərdən biri də Prezident İlham Əliyevin ardıcıl islahatlarıdır. Dövlət başçısı siyasi, sosial, iqtisadi, mədəni, humanitar və demək olar ki, həyati əhəmiyyətli bütün sahələrin tərəqqisi ilə bağlı sərəncamlar, fərmanlar imzalayır. Prezidentin 2019-cu ildə atdığı bu təxirəsalınmaz və qətiyyətli addımları xalq–iqtidar birliyini misilsiz dərəcədə möhkəmləndirdi. Bunun nəticəsidir kİ, ölkəmiz “Doing Business 2019” hesabatında 32 pillə irəliləyərək ən islahatçı ölkələr sırasında 57-ci pillədən 25-ci yerə yüksəlib. Siyasi və iqtisadi böhranların cərəyan etdiyi müasir dünyamızda Azərbaycanın yürütdüyü daxili və xarici siyasət öz məcrası ilə getməkdə və uğurlar qazanmaqdadır.

Beləliklə, 2019-cu ildə ölkəmizdə davamlı inkişafı təmin etmək, aparılan sosial-iqtisadi islahatları dərinləşdirmək üçün məqsədyönlü siyasət aparıldı. Bu isə 2020-ci ilə daha mütəşəkkil getməyimizi şərtləndirdi. Nəticələr birmənalı şəkildə onu göstərir ki, hansı ölkədə xalq və iqtidar arasında anlayış, səmimiyyət, qarşılıqlı etimad dəyərləri formalaşmışdırsa, orada inkişafa, sabitliyə zəmanət var. Azərbaycanda da bu dəyərlərin qorunması üçün dövlətimiz tərəfindən düşünülmüş, ədalətli, çevik addımlar atılır.

**Anar TURAN,**
**“Xalq qəzeti”**